1_Layout 1 13.04.2018 10:56 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*

**İlham ƏLİYEV**


# ƏSGƏR

№ 08 (524)

14 aprel 2018-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti


## PREZİDENT İLHAM ƏLİYEVİN SƏDRLİYİ İLƏ NAZİRLƏR KABİNETİNİN İLİN BİRİNCİ RÜBÜNÜN YEKUNLARINA VƏ QARŞIDA DURAN VƏZİFƏLƏRƏ HƏSR OLUNAN İCLASI KEÇİRİLİB

***Aprelin 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib.***

***AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı iclası giriş nitqi ilə açıb.***





Azərbaycan Prezidenti İlham Əliyev qeyd edib ki, bu ilin birinci rübündə respublikamızda keçirilmiş bir neçə mötəbər beynəlxalq tədbirlər ölkəmizin beynəlxalq nüfuzunu artırır, Azərbaycanı dünyaya müasir, inkişafda olan ölkə kimi təqdim edir: "Mən bu tədbirlər arasında VI Bakı Qlobal Forumunu xüsusilə qeyd etmək istəyirəm. Bu Forum qısa müddət ərzində dünya miqyasında böyük hörmət qazanmış bir beynəlxalq platformadır. Dünyada keçirilən aparıcı forumlar arasında Bakı Beynəlxalq Forumu qısa müddət ərzində öz layiqli yerini tuta bilmişdir".

Bu il ölkəmizdə Qoşulmama Hərəkatının xarici işlər nazirlərinin konfransının keçirildiyini diqqətə çatdıran Prezident İlham Əliyev bildirib ki, bu, çox önəmli beynəlxalq tədbirdir: "Bildiyiniz kimi, Qoşulmama Hərəkatı dünyada BMT-dən sonra ikinci böyük təşkilatdır. Biz bu təşkilata 7 il bundan əvvəl üzv olmuşuq və qısa müddət ərzində təşkilatda böyük rəğbət və hörmət qazana bilmişik. Məhz bunun nəticəsidir ki, belə bir mötəbər beynəlxalq tədbir məhz ölkəmizdə keçirilir. Ondan da əlavə qeyd etmək istərdim ki, gələn ildən başlayaraq Azərbaycan dünyanın ikinci böyük təşkilatına sədrliyi öz üzərinə götürəcəkdir. Bu, 120 ölkənin Azərbaycana olan böyük hörmətinin, inamının təzahürüdür. Bu böyük təşkilat çərçivəsində Azərbaycan çox uğurlu fəaliyyət göstərir".

Dövlətimizin başçısı əlavə edib ki, bütün bu beynəlxalq tədbirlər çərçivəsində və eyni zamanda, Azərbaycana edilən səfərlər, ikitərəfli formatda aparılan danışıqlar nəticəsində bizim beynəlxalq mövqelərimiz daha da möhkəmləndi: "Deyə bilərəm ki, mən bütün görüşlərdə həmkarlarıma və görüşdüyüm şəxslərə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Azərbaycanın mövqeyini, münaqişə ilə bağlı həqiqətləri çatdırıram. Hər dəfə bildirirəm ki, Dağlıq Qarabağ əzəli, tarixi Azərbaycan torpağıdır, işğalçı dövlət tərəfindən işğal edilib. Bu işğal nəticəsində bir milyondan artıq azərbaycanlı etnik təmizləməyə məruz qalmışdır, torpaqlarımız işğal altındadır, tarixi abidələrimiz, məscidlərimiz erməni vandalları tərəfindən dağıdılıbdır. Bildirirəm ki, bütün beynəlxalq təşkilatlar bu münaqişə ilə bağlı ədalətli, beynəlxalq hüquqa söykənən qərar və qətnamələr qəbul etmişlər və bu münaqişə yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Bu görüşlərin və ümumiyyətlə, bu istiqamətdəki fəaliyyətimizin nəticəsi ondan ibarətdir ki, bu gün Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün hüquqi baza tam yaradılıb və heç bir dövlət qondarma "Dağlıq Qarabağ respublikası"nı tanımır və tanımayacaq".

Ordu quruculuğunun bu gün də prioritet məsələ olduğunu deyən Prezident İlham Əliyev bildirib ki, son illər ərzində güclü hərbi potensial yarada bilmişik, o potensial ki, bu gün Azərbaycan Ordusunu dünya miqyasında güclü ordular sırasına daxil edibdir: "Bunu beynəlxalq məsələ ilə məşğul olan bütün qurumlar və reytinqlər təsdiqləyir. Biz bundan sonra da ən müasir silah, sursat, texnika alacağıq ki, daim hərbi üstünlük təmin edilsin, necə ki, bu gün bu, təmin edilir.

Bu il Azərbaycan Ordusu genişmiqyaslı hərbi təlimlər keçirmişdir. Bu təlimlər bir daha bizim gücümüzü göstərdi, düşməni qorxuya saldı. Bilirik ki, bir neçə gün ərzində onlar panika içərisində idilər, səbirsizliklə gözləyirdilər ki, bu təlimlər başa çatsın. Yəni, bu, artıq reallıqdır, həqiqətdir. Hərbi amil münaqişənin ədalətli həlli üçün mühüm rol oynayır və biz bundan sonra da hərbi potensialımızı gücləndirəcəyik".

Dövlət başçımızın sözlərinə görə, birinci rübdə Azərbaycan iqtisadiyyatı 2,3 faiz artmışdır: "Bu, çox gözəl göstəricidir və dünya miqyasında mövcud olan artımdan daha yüksək göstəricidir. Qeyri-neft sektorumuz isə təxminən 3 faiz artmışdır. Bu da iqtisadiyyatımızın şaxələndirilməsi istiqamətində aparılan siyasətin nəticəsidir".

Qeyd edilib ki, valyuta ehtiyatlarımız 2,2 milyard dollar artmışdır və hazırda 44,2 milyard dollara bərabərdir: "Hesab edirəm, 3 ay ərzində 2 milyard dollardan çox artan valyuta ehtiyatlarımız bir tərəfdən onu göstərir ki, biz ehtiyatlarımızdan çox qənaətlə istifadə edirik, digər tərəfdən, bu, son illər ərzində apardığımız uğurlu neft siyasətinin nəticəsidir. Çünki bu vəsaitin tərkibində keçən il imzalanmış "Azəri-Çıraq-Günəşli" yatağının istismar müddətinin uzadılması ilə bağlı kontraktdan irəli gələn 450 milyon dollar bonus da vardır".

İş yerlərinin açılmasına gəldikdə, birinci rübdə 34 min yeni iş yeri yaradılmışdır ki, onlardan 31 mini daimi iş yeridir. Artıq 1 milyon 500 min iş yerinin yaradılmasına yaxınlaşırıq. Əgər biz birinci rübün rəqəmlərini də əlavə etsək, 2004-cü ildən bu günə qədər Azərbaycanda təxminən 1 milyon 500 min yeni daimi iş yeri yaradılmışdır.

Azərbaycan Prezidenti giriş nitqinin sonunda qeyd edib ki, birinci rübün yekunları müsbətdir.

Sonra "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin sədri Baba Rzayev, "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin sədri Qorxmaz Hüseynov və Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin İdarə Heyətinin sədri Samir Nuriyev məruzə ilə çıxış ediblər.

Prezident İlham Əliyev yekun nitq söyləyərək, nəzərə çatdırıb ki, birinci rübdə əldə etdiyimiz göstəricilərlə fəxr edə bilərik: "Bunlar doğrudan da Azərbaycanın uğurlu inkişafını əks etdirən göstəricilərdir".

Ölkə başçısı qeyd edib ki, Dünya Bankı tərəfindən təqdim olunan "Doing Business" hesabatında Azərbaycan ardıcıl şəkildə öz mövqelərini gücləndirir, daha da yüksək pilləyə qalxır: "Ancaq biz yenə də bu istiqamətdə səylərimizi davam etdirməliyik, xüsusilə bizi geriyə çəkən məsələlərdə daha da ciddi addımlar atmalıyıq və bunu edirik".

Eyni zamanda, Davos İqtisadi Forumunun hesablamalarında rəqabətqabiliyyətliliyə görə 35-ci yerə yüksəlməyimizi tarixi nailiyyət kimi dəyərləndirən Prezident İlham Əliyev vurğulayıb ki, bu gün dünyanın 35 ən rəqabətqabiliyyətli ölkəsindən biriyik və haqlı olaraq bununla fəxr edirik.

Azərbaycanda turizmin inkişafının sürətlə getdiyini deyən ölkə başçısı diqqətə çatdırıb ki, biz bundan sonra bu sahəyə daha sistemli şəkildə baxmalıyıq və oturub gözləməməliyik ki, kimsə bizə qonaq gələcək: "Biz özümüz turistləri cəlb etməliyik. Biz indi elə bir şərait yaratmışıq ki, Azərbaycanı dünyada çox yaxşı tanıyırlar, bizim çox gözəl beynəlxalq imicimiz var. İndi Azərbaycana gələnlərin sayı artır. Biz beynəlxalq tədbirlər keçiririk. Qeyd etdiyim kimi, təkcə Formula 1 yarışlarının Bakı şəhərinin küçələrində keçirilməsi görün, turist axınına nə qədər təkan verdi. Təhlükəsizlik, sabitlik, qonaqpərvərlik, gözəl iqlim, tarixi abidələrimiz, infrastruktur, 6-sı beynəlxalq olmaqla 7 aeroport, gözəl avtomobil yollarımız və viza rejiminin sadələşdirilməsi - indi 90-dan çox ölkənin vətəndaşları vizanı aeroportlarda alırlar. İndi bu sahədə də təkmilləşmə işləri aparılacaqdır. Çünki əfsuslar olsun ki, bu sahədə çox böyük pozuntular olmuşdur. Biz vizaları ləğv etdik. Çünki aeroportlarda gələn turistlərə əziyyət verirdilər, əsassız pul tələb edirdilər. Bu biabırçılığı yığışdırmışıq. Bu biabırçılığı, bu pozuntuları, bu cinayəti törədənlər də cinayət məsuliyyətinə cəlb olunub. Hamı bilsin ki, bu cinayətlər cəzasız qalmayacaq".

Prezident İlham Əliyev çıxışının sonunda vurğulayıb ki, Azərbaycan bundan sonrakı dövrdə də uğurla inkişaf edəcək: "Bizim bütün planlarımız həyata keçirilir. Verdiyimiz bütün vədlər yerinə yetirilir. Son 15 il ərzində bir dənə də yerinə yetirilməyən vəd olmamışdır. Bu gün Azərbaycanın reallıqları onu göstərir ki, biz düzgün yoldayıq. Bu yolla uğurla gedəcəyik".

## PREZİDENT İLHAM ƏLİYEV AZƏRBAYCAN XALQINA MÜRACİƏT EDİB

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 11-də keçirilən seçkilərdə ona göstərilən böyük etimada görə xalqımıza müraciət edərək minnətdarlığını bildirib.

AZƏRTAC dövlətimizin başçısının müraciətini təqdim edir.

**- Əziz həmvətənlər.**

Prezident seçkilərində Azərbaycan xalqı yenidən mənə böyük etimad göstərmişdir. Bu etimada, bu böyük dəstəyə görə doğma xalqıma minnətdarlığımı bildirmək istəyirəm.

Mən həmişə Azərbaycan xalqının dəstəyini hiss edirəm. Bu dəstək mənə güc verir. Bu dəstək bizim inkişafımız üçün əsas şərtdir. Xalq-iqtidar birliyi Azərbaycanda inkişafımızın əsas amilidir. Bu seçkilərdə Azərbaycan xalqı sabitliyə, təhlükəsizliyə, inkişafa, tərəqqiyə səs vermiş, son 15 il ərzində görülən işlərə yüksək qiymət vermişdir. Bütün bu uğurları biz sizinlə birlikdə qazandıq.

Xalq-iqtidar birliyi, bizim məqsədyönlü siyasətimiz bu gün Azərbaycanı qüdrətli dövlətə çevirmişdir. Azərbaycanın beynəlxalq nüfuzu artır, biz dünya miqyasında layiqli yer tuta bilmişik. Bu gün Azərbaycan dünyada çox böyük hörmətə, rəğbətə, dəstəyə malik olan bir ölkədir. Biz etibarlı tərəfdaşıq, bizimlə hesablaşırlar və biz beynəlxalq aləmdə öz mövqelərimizi böyük dərəcədə gücləndirə bilmişik.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı prinsipial mövqeyimizdən bir addım da geriyə atmamışıq. Bizim prinsipial mövqeyimiz daha da güclənir. Bu münaqişə ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır, bunun başqa yolu yoxdur. Son illər ərzində bir çox mötəbər beynəlxalq təşkilatlar bizim mövqeyimizi, ədaləti dəstəkləyən bir sıra qərar və qətnamələr qəbul etmişlər. Biz böyük diplomatik qələbələrə nail olmuşuq. Eyni zamanda, döyüş meydanında biz böyük qələbəyə nail olmuşuq. Azərbaycan əsgəri, Azərbaycan Ordusu, Azərbaycan dövləti işğal altında olan torpaqlarımızın bir hissəsini işğalçılardan azad etmişdir. Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsi işğalçılardan təmizləndi və o torpaqlarda bu gün Azərbaycan bayrağı dalğalanır. İşğaldan azad edilmiş torpaqlara həyat qayıdır, insanlar qayıdır. O torpaqlarda prezident seçkiləri keçirilir. Gün gələcək və bu gün hələ də işğal altında olan bütün torpaqlarda Azərbaycan bayrağı qaldırılacaq, bu torpaqlarda prezident seçkiləri keçiriləcək, Azərbaycan Prezidenti seçiləcəkdir.

Biz daha güclü olmalıyıq. Güclü olmaq üçün daha güclü iqtisadiyyat qurmalıyıq. Son 15 il ərzində iqtisadi sahədə Azərbaycan qədər inkişaf edən ikinci ölkə olmamışdır. İqtisadiyyatımız 3,2 dəfə artmışdır və bu gün Azərbaycan dünyanın ən rəqabətqabiliyyətli ölkələri sırasındadır. Rəqabət qabiliyyətliliyinə görə biz 35-ci yerdəyik.

Siyasətimizin mərkəzində həmişə Azərbaycan vətəndaşı, onun problemləri, qayğıları, onun rifahı olubdur. Son 15 il ərzində maaşlar və pensiyalar 8 dəfə artmışdır. Bu siyasət bundan sonra da davam etdiriləcəkdir. Azərbaycan bu illər ərzində kosmik dövlətə çevrilibdir. Biz ən qabaqcıl texnologiyaları ölkəmizə gətiririk, tətbiq edirik və texnoloji, elmi inkişaf gələcək fəaliyyətimiz üçün də əsas prioritetlərdən biri olacaqdır.

Bir sözlə, bütün istiqamətlər üzrə nəticələr göz qabağındadır. Azərbaycan nəhəng enerji və nəqliyyat layihələrini icra edir. Bizim təşəbbüsümüz və fəal iştirakımızla o layihələr əsasında Avrasiyanın enerji və nəqliyyat xəritələri yenidən tərtib olunur. Azərbaycan dövləti heç vaxt bugünkü qədər güclü olmamışdır. Biz güclü dövlət qurmuşuq, daha da güclü Azərbaycan qurmalıyıq və əminəm ki, quracağıq.

Keçdiyimiz yol şərəfli yoldur, qələbələr, uğurlar yoludur. Əminəm ki, biz həmişə qələbələr yolu ilə gedəcəyik. Yeni qələbələrə doğru irəli!

## DAXİLİ İŞLƏR NAZİRLİYİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

***Aprelin 3-də Daxili İşlər Naziri, general-polkovnik Ramil Usubov ölkəmizdə rəsmi səfərdə olan Türkiyə Respublikasının ədliyyə naziri Əbdülhəmid Gülün başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***



Cənab Ramil Usubov ikitərəfli əlaqələrin mövcud durumundan danışarkən rəhbərlik etdiyi qurumun qardaş ölkənin Daxili İşlər Nazirliyi ilə münasibətlərin daha da inkişaf etdirilməsinə böyük önəm verildiyini, Daxili Qoşunların formalaşmasında, ən müasir tələblərə cavab verən quruma çevrilməsində, şəxsi heyətin peşəkarlığının daha da yüksəldilməsində Türkiyə Jandarm Komandanlığının böyük zəhməti olduğunu xüsusi vurğulayaraq buna görə təşəkkürünü bildirib.

2016-cı il iyul ayının 15-də Türkiyədə baş vermiş dövlət çevrilişi cəhdinə toxunan nazir həmin olayların Azərbaycanda da böyük narahatlıq yaratdığını, dövlətçiliyə, demokratiyaya, xalqa, onun iradəsinə və seçiminə qarşı törədilən dəhşətli cinayətin respublikamızda şiddətlə qınandığını nəzərə çatdırıb. O, antikonstitusion əməllərin qarşısının alınması istiqamətində həyata keçirilən qətiyyətli tədbirlər nəticəsində vəziyyətin qısa zamanda sabitləşməsindən, dost dövlətin iqtisadi, siyasi və hərbi qüdrətinin getdikcə artmasından və beynəlxalq arenada nüfuzunun yüksəlməsindən məmnunluğunu ifadə edib.

Səmimi qəbula və ətraflı məlumata görə minnətdarlığını bildirən cənab Əbdülhəmid Gül iki ölkənin müvafiq orqanları arasındakı qarşılıqlı faydalı və səmərəli işbirliyini yüksək qiymətləndirib, ikitərəfli münasibətlərin inkişafı üçün bundan sonra da səylərini əsirgəməyəcəklərini, belə əməkdaşlığın, təcrübə mübadiləsinin qardaş xalqlarımızın və dövlətlərimizin mənafelərinə xidmət etdiyini vurğulayıb.

Dostluq və mehribanlıq şəraitində keçən görüşdə tərəfləri maraqlandıran bir sıra digər məsələlər də müzakirə edilib.

Qəbulda Türkiyə Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Erkan Özoral iştirak edib.

2_Layout 1 13.04.2018 13:38 Page 1



*"Döyüş hazırlığının qorunub saxlanılmasına söz veririk!"*

# XİDMƏTİ-DÖYÜŞ FƏALİYYƏTİNİN YEKUNLARINA GÖRƏ FƏRQLƏNƏN BÖLÜK

***Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının xidməti-döyüş fəaliyyətini uğurla yerinə yetirməsi üçün dövlət tərəfindən hər cür şərait yaradılmışdır. Respublika Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin diqqət və qayğısını hər zaman hiss edən hərbi qulluqçularımız bilik və bacarıqlarını, peşəkarlıqlarını artırmaqla onlara göstərilən etimadı daim doğrultmağa çalışırlar. Məhz Daxili İşlər Naziri və Daxili Qoşunların Komandanı tərəfindən Baş İdarədə, Ali Hərbi Məktəbdə, hərbi hissələrdə xidməti-döyüş fəaliyyəti diqqətdə saxlanılmaqla, şəxsi heyət qarşısında qoyulan əsas tələb döyüş hazırlığının qorunub saxlanılmasıdır. Təbii ki, tapşırıqları tam və keyfiyyətlə yerinə yetirən hərbi qulluqçular, eləcə də bölmələr nəticə etibarilə mükafatlandırılırlar.***

Bu baxımdan "Əsgər" qəzetinin zabitləri mütəmadi olaraq qoşunların hərbi hissələrində olarkən ilk növbədə nümunəvi xidmətilə fərqlənən bölüklərin, bacarıqlı, bilikli hərbi qulluqçuların fəaliyyəti barədə məlumatlar toplayır, materiallar hazırlayır. Bu günlərdə 67987 saylı hərbi hissədə xidməti ezamiyyətdə olarkən, hissə komandanlığı ötən ilin yekunlarına görə fərqlənən bölmələrdən biri - patrul bölüyü haqqında material hazırlamağı məsləhət gördü.



Patrul bölüyü keçən il xidməti-döyüş fəaliyyətinin yekunlarına əsasən, hissə üzrə ikinciliyi qazanan bölükdür. Bölük komandiri baş leytenant Bayandur Əliyev müəyyən edilmiş vəzifələrin icrasında əlindən gələni əsirgəmədiklərini, tabeliyində olan hərbi qulluqçularla mütəmadi olaraq nəzəri və praktiki məşğələlərin keçirildiyini nəzərə çatdırdı.

Patrul bölüyündə şəxsi heyətin təlim-tərbiyəsinin düzgün təşkili, xidməti-döyüş tapşırıqlarının uğurla həyata keçirilməsi komandir heyətinin qarşısında duran əsas vəzifələrdəndir. Məqsədə nail olmaq üçün ilk növbədə bölmədə nizamnamə qaydalarının tam həcmdə icrasını nəzarətdə saxlamaq, bu qaydaların şəxsi heyətə şüurlu şəkildə izah edilməsi diqqətdən kənarda qalmayan məsələdir. Gündəlik olaraq şəxsi heyətlə atəş, fiziki, ixtisas və ictimai-siyasi hazırlıq fənləri üzrə məşğələlər keçirərkən təyin olunmuş normativlərin düzgün və vaxtında icra edilməsinə, eləcə də keçirilən məşğələlərdə zəif nəticə göstərən hərbi qulluqçuların üzərində təkrar iş aparılmaqla təlim fənlərinin eyni səviyyədə mənimsənilməsinə nail olunub. Bu işdə ilk növbədə kiçik komandirlərin metodiki hazırlığına diqqət yetirilir, çavuşlar tərəfindən tabeliyində olanlarla məşğələlərin düzgün keçirilməsi nəzarətdə saxlanılır.

Ümumiyyətlə, bölüyün xidməti-döyüş fəaliyyətinin nəticələrinin hər günün sonunda təyin edilmiş vaxtda bütün dərəcəli hərbi qulluqçuların iştirakı ilə keçirilən yekunda təhlil edildiyini deyən baş leytenant B.Əliyev burada müsbət və mənfi cəhətlərin qeyd olunduğunu xüsusilə bildirdi. O, xidmətdə fərqlənən hərbi qulluqçuların mükafatlandırıldığını, nöqsana yol vermiş hərbi qulluqçularla isə bu kimi halların bir daha təkrar olunmaması üzrə söhbətlərin aparıldığını və profilaktik tədbirlərin görüldüyünü sözlərinə əlavə etdi.

Gündəlik xidməti-döyüş fəaliyyətində, təlimdə effektivliyi artırmaq üçün əsas diqqət bölüyə yeni qəbul olunmuş əsgərlərlə işə yönəldilir. Bunun üçün ilk növbədə hər təlim dövründə yeni çağırışçıların mənəvi və işgüzar keyfiyyətləri dərindən öyrənilir, onlara hərbi xidmətin çətinlik və məhrumiyyətlərinə mətinliklə dözməsi üzrə istiqamətlər verilir. Xidmətə yeni başlayan əsgərlərin təlim-tərbiyəsində, kollektivə uyğunlaşmasında daha təcrübəli hərbi qulluqçuların əməyindən geniş istifadə olunur.

Bir komandir kimi üzərinə düşən bütün vəzifələri lazımi səviyyədə icra etməyə çalışan baş leytenant B.Əliyev zabitin geniş dünyagörüşünə, pedaqoji mədəniyyətə malik olmasının vacibliyini dilə gətirdi: "Hər bir zabit birinci növbədə öz şərəf və ləyaqətini qorumağı bacarmalı, davranışları, rəftarı ilə tabeliyində olanlara nümunə olmalıdır. Daxili mədəniyyəti olmayan zabitin icraçılığı da qənaətbəxş olmur. Daxili Qoşunların zabiti olduğum üçün həmişə fəxr etmişəm, atdığım hər bir addımda diqqətli olmağa çalışıram ki, şəxsi heyətə pis nümunə olmayım. Keçən il olduğu kimi, bu il də bölüyümüzün hissə komandanlığının etimadını doğruldaraq, döyüş hazırlığının yüksək səviyyədə saxlanılmasına çalışacaq, xidməti-döyüş fəaliyyətinin yekunlarına görə fərqlənmək üçün əlimdən gələni əsirgəməyəcəyimə söz verirəm".

**leytenant N.Ağayeva**

# XİDMƏTİN HƏRBİ QULLUQÇULARI FUNKSİONAL VƏZİFƏLƏRİNƏ MƏSULİYYƏTLƏ YANAŞIR

***Bu gün Daxili Qoşunların hərbi hissələrində abadlıq-quruculuq işləri davam etdirilir. Yaradılmış hərtərəfli şəraitin, binaların, mənzillərin, qurğuların, kommunal avadanlığın qorunub saxlanılmasını, düzgün texniki istismarını, eləcə də yanğından mühafizə tədbirlərini hərbi hissədə maddi-texniki təminat xidmətlərində Mənzil-istismar xidmətləri həyata keçirir. 16075 saylı hərbi hissənin Mənzil-istismar xidməti də qarşıya qoyulmuş tapşırıqları uğurla icra edir.***

Mənzil-istismar xidmətinin rəisi baş leytenant Fərid Hüseynov bildirdi ki, binaların, tikililərin düzgün texniki istismarının təmin edilməsi, avadanlıqların,



mənzil vəsaitlərinin lazımi qaydada saxlanılması, eyni zamanda şəxsi heyətin normal yerləşdirilməsi funksional vəzifələridir. Kommunal xidmətlərin (elektrik enerjisi, yanacaq, təbii qaz və su) sərfinin tələbatını müəyyən etdikdən sonra qənaətlə işlədilməsi də onun ciddi nəzarətindədir.

Xidmət rəisi bir qədər də ötən il və cari ilin 1-ci rübü ərzində görülən işlərdən danışdı. Qeyd etdi ki, yan ərazidə Müdafiə Nazirliyinin balansında olan 1,09 hektar daşınmaz dövlət əmlakı, binalar, qurğular və hərbi şəhərcik Nazirlər Kabinetinin müvafiq qərarına əsasən DİN-in Daxili Qoşunlarına verilmişdir. İstismara yararsız olan, ümumilikdə 16 obyekt (1 əsgər yataqxanası, 1 dəri-müalicə şöbəsi, 1 nəzarət-buraxılış məntəqəsi, 1 əsgər mağazası, 1 hamam, 1 camaşırxana, 1 sanitar qovşaq və 9 anbar) sökülüb. Həmin ərazidə abadlıq işləri görülərək, yaşıllıqlar salınıb və hərbi hissənin istifadəsinə veri-



lib. Qərargah binasının 2-ci mərtəbəsində isə əsaslı təmir işləri aparılıb, yeni müasir tipli kazarma-yaşayış fondu yaradılaraq hərbi hissənin komendant bölüyünə təhkim olunub.

Xidmətin nəzarətdə saxladığı digər istiqamətlərdən biri də 5 mərtəbəli, 60 mənzilli yaşayış binasının, o cümlədən subay hərbi qulluqçuların modul tipli yataqxanasının düzgün istismarıdır. Binalarda istiliyə, təmizliyə və daxili qayda-qanuna riayət olunmasına ciddi diqqət yetirilir.

Onun sözlərinə görə, bu istiqamətdə görülən işlərdə xidmətin hərbi qulluqçuları funksional vəzifələrinə məsuliyyətlə yanaşır, verilmiş tapşırıqları vaxtında və düzgün icra edirlər. Bina komendantı gizir Anar Aslanov yataqxanada daxili qayda-qanuna, yanğından mühafizə qaydalarına düzgün əməl olunmasına, səliqə-sahmanın qorunub saxlanılmasına, əmlak və inventarların düzgün istismarına cavabdehdir. Qazanxana rəisi gizir Orxan Alıyev yanğın təhlükəsizliyini, yaşayış və qeyri-yaşayış binalarında sobaların işlədilməsi, habelə qaz cihazlarından düzgün istifadə olunmasını nəzarətdə saxlayır. Mənzil əmlaklarının uçotunu, qorunub saxlanılmasını, vaxtlı-vaxtında keyfiyyətli təmirini, həmçinin, ərazidə yaşıllaşdırma-abadlıq işlərini isə yataqxana rəisi çavuş Eldəniz Rufullayev həyata keçirir. Xidmətin digər hərbi qulluqçusu, Mənzil-istismar xidmətində kargüzar çavuş Sahilə Hüseynli hesabat sənədlərini tərtib edir, qeydiyyat blanklarının, möhürlərin, ştampların və maddi vəsaitlərin uçotunu aparır. İşçi xanım Minarə Muradəliyevanın vəzifəsi isə pasportçudur. O, yataqxanada yaşayan əməkdaşların və ya hərbi qulluqçuların qeydiyyata alınması, qeydiyyatdan çıxarılması, kirayə müqavilələrinin bağlanması və s. işləri görür.

Bir sözlə, xidmətin hər bir əməkdaşı üzərilərinə düşən vəzifələrin məsuliyyətini dərindən dərk edir və öhdəsindən layiqincə gəlir.

**kapitan T.Əlizadə**

# SAĞLAMLIĞIN KEŞİYİNDƏ...

***Hərbi hissənin tibb personalı üzərilərinə düşən vəzifələri uğurla icra edir***

Qarşıya qoyulmuş tapşırıqların öhdəsindən layiqincə gələn hərbi hissənin şəxsi heyətinin döyüş hazırlığının, eləcə də fiziki göstəricilərinin yüksək olması onların sağlamlıq durumundan çox asılıdır.

Bildiyimiz kimi, hərbi hissələrdə şəxsi heyətin sağlamlığının qorunub saxlanılması Daxili Qoşunlar Komandanlığının və hərbi hissənin komandir heyətinin ciddi nəzarət etdiyi sahələrdən biridir. Bu məqsədlə, yerlərdə davamlı olaraq müalicəvi-profilaktik tədbirlər həyata keçirilir.

67987 saylı hərbi hissənin tibb personalı sözügedən mövzuda vəzifə borclarının icrasına məsuliyyətlə yanaşır, müəyyən edilmiş tapşırıqları uğurla yerinə yetirir.

Tibb xidmətinin rəisi tibb xidməti mayoru Ariz Abdullayevdən hərbi qulluqçuların sağlamlıq durumlarına nəzarət etmək üçün hansı profilaktik tədbirlərin həyata keçirildiyini, xidmətin təşkili zamanı nə kimi problemlərin üzə çıxdığını xəbər aldıq. Söhbət əsnasında o bildirdi ki, gündəlik olaraq xidmət öz işini hissə komandiri tərəfindən təsdiq olunmuş müvafiq plana əsasən təşkil edir. Gündəlik olaraq konsilium keçirilir və xəstələrin səhhəti müzakirə edilərək görüləcək işlərin bölgüsü aparılır, hərbi həkimlərə aidiyyəti üzrə tapşırıqlar verilir. Verilən tapşırıqlarda əsas etibarilə stasionar xəstələrin səhhətinə uyğun təyinatların yerinə yetirilməsinə önəm verilir. Gündəlik olaraq tibb məntəqəsi növbətçisi gecə müddətində stasionar xəstələrlə bağlı müşahidə etdiklərini və edilən müraciətləri xidmət rəisinə qısa məruzə edir. Bir qayda olaraq, xəstələrin sağalma dinamikalarına nəzər yetirilir. Hissə ərazisində dezinfeksiya qrafikinə uyğun tədbirlərin tam həcmdə icra olunmasına, bölmələrdə sanitar vəziyyətə nəzarət və sanitar maarifləndirmə işinin aparılmasına xüsusi diqqət göstərilir.

Tibb məntəqəsi rəisi tibb xidməti kapitanı Asəf Yolçuyevin rəhbərliyi ilə ambulator xəstələrin qəbulu, onlara yardım göstərilməsi, təyinatların icrasına nəzarət, həmçinin, xəstələrin tibb kitabçalarında qeydiyyatların aparılması həyata keçirilir.



Tibbi yardıma ehtiyacı olan hərbi qulluqçulara həkimin təyinatına uyğun müalicə təyin olunur, zəruri halda stasionar müalicəyə qəbulu və ya ixtisaslı müalicə üçün Daxili Qoşunların Qospitalına göndərilməsi həyata keçirilir.

Tibb xidməti mayoru A.Abdullayev şəxsi heyətin sağlamlığının qorunması istiqamətində görülən işlərdən danışarkən, hərbi qulluqçuların səhhətinin qayğısına qalan tibb personalının üzərinə düşən vəzifələri uğurla icra etdiyini dilə gətirdi.

Gün ərzində qarovula ayrılmış hərbi qulluqçuların müayinəsi, Nardaran qəsəbəsində xidmətə cəlb olunmuş hərbi qulluqçulara, həmçinin, yeməkxana fəhlələri və xəttə çıxan sürücülərə tibbi baxışların keçirilməsi də nəzərdən qaçmayan məsələdir.

Mövsümə uyğun olaraq respirator və allergik xəstəliklərin profilaktikası məqsədilə mütəmadi olaraq şəxsi heyət arasında tibb işçiləri tərəfindən izahedici söhbətlər aparılır, xəstələnmə halları rast gəlinən bölmələrdə əlavə dezinfeksiya tədbirləri həyata keçirilir. Eyni zamanda müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları ilə də tibbi maarifləndirmə üzrə söhbətlər aparılır. Bu söhbətlər onların sağlamlıq durumunun yaxşılaşdırılmasına xidmət edir. Onlara ayaqüstü qidalardan uzaq olmaları, gigiyenik normalara əməl etmələri aşılanır.

Sanitar-təlimatçıların və atıcı-sanitarların praktiki fəaliyyətinin daha da təkmilləşdirilməsi, mütəmadi olaraq ixtisas hazırlığı üzrə məşğələlər keçirilir.

Tabeliyində olan tibb işçilərinin fəaliyyətini yüksək qiymətləndirən tibb xidməti mayoru A.Abdullayev tibb məntəqə rəisi ka-



pitan A.Yolçuyev, gizir Gültəkin Xamrayeva və kiçik çavuş Məhəbbət Zeynalovanın xidməti vəzifələrinə layiqincə yanaşdıqlarını qeyd etdi. Xüsusi təyinatlı dəstədə sanitar-təlimatçı gizir Atif Qaraşovun nümunəvi xidmətini xüsusi olaraq qeyd edən xidmət rəisi onu digər sanitar-təlimatçılara örnək kimi səciyyələndirdi.

Xidmət rəisi xidmətin müasir standartlar səviyyəsində təşkilinə, son model tibbi avadanlıqlarla təchiz olunduqlarına görə Daxili İşlər Nazirinə və Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanına minnətdarlığını bildirdi və qeyd etdi ki, belə bir şəraitin yaradılması istər-istəməz xidmətin yüksək səviyyədə təşkilini şərtləndirir. O, göstərilən diqqət və qayğıya rəğmən vurğuladı ki, hərbi hissənin tibb personalı bundan sonra da funksional vəzifələrinə məsuliyyətlə yanaşacaq, şəxsi heyətin sağlamlığının keşiyində mətin dayanacaq.

**leytenant N.Ağayeva**

*NÜMUNƏVİ XİDMƏT*

# ONLAR DƏFƏLƏRLƏ MÜXTƏLİF MÜKAFATLARA LAYİQ GÖRÜLÜBLƏR

***"Əsgər" qəzetinin hərbi hissələrdəki ştatdankənar müxbir postlarından yerlərdə xidmət edən nümunəvi hərbi qulluqçular barədə materiallar redaksiyamıza davamlı olaraq daxil olmaqdadır. Bu buraxılışımızda 17072 saylı hərbi hissənin nümunəvi xidməti, eləcə də nizam-intizamı ilə fərqlənən bir neçə hərbi qulluqçusunu sizlərə təqdim edirik.***

Xüsusi təyinatlı dəstədə yarımqrup komandiri **baş çavuş Yasin Qasımov** 1987-ci il yanvar ayının 6-da Tərtər rayon Təzəkənd kəndində anadan olub. 2006-cı ildə müddətli həqiqi hərbi xidmət keçib. 2010-cu ilin



aprel ayından müddətdən artıq xidmət edən həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi Daxili Qoşunların sıralarındadır. O, xidməti dövründə vəzifə borclarına məsuliyyətlə yanaşıb, yüksək fiziki hazırlıq, o cümlədən hərbi intizam nümayiş etdirərək nailiyyətlər qazanmağı bacarıb. 2016-cı ildə Daxili Qoşunlarda keçirilən "Zoğalı beret" sınaqlarında normativləri tam şəkildə yerinə yetirərək daşıma hüququnu qazanıb. Bundan başqa, ötən il yekun yoxlamasını da əla qiymətlərlə başa vurub.

Nümunəvi intizamı ilə fərqlənən hərbi qulluqçulardan biri də **kiçik çavuş Fərid Əhmədzadədir.** O, 6 mart 1999-cu ildə Bakıda dünyaya göz açıb. 2017-ci ilin aprel ayından həqiqi hərbi xidmətdədir. Komendant bölüyündə manqa komandiri olan Fərid həm



də peşəkar boksçudur. Qoşunların hissə və bölmələri arasında keçirilən yarışlarda bir neçə dəfə qalib olub. Onun fiziki hazırlığının yüksək olması funksional vəzifələrindən irəli gələn tapşırıqların yerinə yetirilməsində mühüm rol oynayır.

**Baş əsgər Kamran Oruczadə** də Komendant bölüyündə komandirləri tərəfindən müsbət xarakterizə olunan hərbi qulluqçulardandır. 1996-cı il sentya-



brın 9-da Şəki rayonunun Aşağı Daşağıl kəndində anadan olan Kamran 2017-ci ilin iyul ayından müddətli həqiqi hərbi xidmətdədir. Qarovul xidmətinə cəlb olunan baş əsgər K.Oruczadə xidməti-döyüş tapşırığını yerinə yetirərkən daima ayıq-sayıqlıq, çeviklik nümayiş etdirir, tapşırılmış hərbi obyekti göz bəbəyi kimi qorumağı bacarır. O, eyni zamanda, qarovul xidmətinə yeni cəlb olunmuş hərbi qulluqçuların xidmətə uyğunlaşmasında komandirlərə yaxından köməklik göstərir. Bütün bunlar nəzərə alınaraq, dəfələrlə mükafatlandırılıb.

Hərbi hissənin komandanlığı tərəfindən xidməti fəaliyyətinə görə mükafatlandırılan digər bir hərbi qulluqçu **baş əsgər Qurban Baxışovdur.** O, 1998-ci il noyabrın 1-də Qəbələ rayon Tikanlı kəndində dünyaya göz açıb. 2017-ci ilin yanvar ayından Daxili Qoşunların sıralarındadır. Patrul bölüyündə baş atıcı olan Qurban döyüş və fiziki hazırlığına görə yoldaşlarına nümunə olacaq hərbi qulluqçudur. Baş əsgər Q.Baxışov daima öz üzə-



rində çalışır, hərbi bilik və bacarıqlarının daha da yüksəlməsi istiqamətində səy göstərir. Elə bu səbəbdəndir ki, hərbi hissədə keçirilən ilin yekun yoxlaması zamanı yüksək qiymətlərə layiq görülüb.

Təminat taborunda radiotelefonçu **əsgər Ceyhun Bayramov** da hərbi hissədə vəzifə borclarının öhdəsindən layiqincə gələn hərbi qulluqçulardandır. 1996-cı



il avqust ayının 24-də Gürcüstan Respublikasının Bolnisi rayonunda anadan olan Ceyhun 2017-ci ilin iyul ayından müddətli həqiqi hərbi xidmətdədir. O, radiotelefonçu olaraq rabitə xətlərinin sazlığını yoxlayır, fasiləsiz rabitənin təşkili məqsədilə daima rabitə xətlərini nəzarətdə saxlayır, alınan məlumatları vaxtında aidiyyəti üzrə xidmətlərə ötürür.

Yuxarıda adıçəkilən hərbi qulluqçulara bundan sonrakı xidmət müddətində uğurlar arzulayırıq.

**17072 saylı hərbi hissənin ştatdankənar müxbir postu**

3_Layout 1 13.04.2018 13:39 Page 1



## ŞƏHİDLƏRİMİZ

# Fədai döyüşçü kimi anılan oğul

***Gülləden biçilmiş bir köynək ver mənə,***
***Analar saçını yolmasın...***

Bu təsirli və kövrəldici misralar “Ağ ümid” şeir və mahnısından götürülüb. Qarabağ müharibəsində döyüş yolu keçmiş qeyrətli və fədakar oğullar haqqında yazılan bu misralarda ön cəbhə həyatının ölümlü-itimli gerçəkliyi ifadə olunur. Müharibə həm şücaət meydanı, sınaq məqamı, həm də həyatını qurban verən, itkin düşüb taleyi bilinməyən, yaralanıb əlil olan oğullar, gözləri yolda qalan, ata, oğul, qardaş, ər itkisinin ağrı-acısı ilə yaşayan ailələr, hamımız üçün qan yaddaşı deməkdir. Döyüşə atılan oğullar özlərini qorumağı deyil, Vətən torpağını qorumağı düşünürdülər, bu od-alovlu anlarda onların bir çoxu üçün geriyə yol yox idi...

Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Qarabağ müharibəsində şəhid olmuş və itkin düşmüş hərbi qulluqçularının siyahısında əsgər Cavadov Elman Xurşud oğlunun da adı var. Onun qısa hərbi xidmət və döyüş yolu hərbi anda sədaqət, əsgər ləyaqəti nümunəsidir. O, 1973-cü il sentyabrın 5-də Sumqayıt şəhərində dünyaya göz açıb. Cavadovlar ailəsinin sonbeşiyi idi. Ailə üzvlərinin dediyinə görə, çox istiqanlı, doğmalarına diqqətli və mehriban, hamıya xeyirxah münasibət göstərən gənc olub. Elman Sumqayıt şəhərindəki 3 saylı orta məktəbdə təhsil alıb. Yeniyetmə yaşlarından əlbəyaxa döyüş idman növlərinə maraq göstərib. Xüsusən karate idman növü üzrə məşqlərə gedib. İdmanla məşğul olması onu həm fiziki cəhətdən, həm də iradəcə möhkəmləndirib, eləcə də pis vərdişlərdən qoruyub. Valideynlərindən aldığı tərbiyəyə xələl gətirə biləcək heç bir hərəkətə yol verməyib.

Elman Sumqayıtdakı 7 saylı texniki-peşə məktəbində də oxuyub. Peşə öyrənməyə, zəhmət sərf edib əməyə qatılmağa laqeyd yanaşmayıb.

1992-ci ilin aprel ayında Elman Sumqayıt Şəhər Hərbi Komissarlığı (hazırda Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Sumqayıt Şəhər İdarəsi) tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. Həmin aydan etibarən DİN-in Daxili Qoşunlarının 5477 saylı (hazırda 17072) hərbi hissəsində hərbi xidmətə başlayıb. Bu hərbi hissə 1991-ci ilin dekabr ayından Azərbaycanın Daxili Qoşunlarının tabeliyinə verilmişdi. 1992-ci ilin mart ayının 12-dən başlayaraq Daxili Qoşunların şəxsi heyəti torpaqlarımızın müdafiəsində dayanırdı. 5477 saylı hərbi hissənin hərbi qulluqçuları da həmin dövrdə ön cəbhəyə göndərilirdilər. Ümumiyyətlə, bu hərbi hissə ağır döyüş sınaqlarından keçib. Hərbi hissənin şəxsi heyəti Tərtər, Ağdərə və Kəlbəcər döyüş zonasında erməni işğalçılarına qarşı mətinliklə vuruşub.

Elman 5477 saylı hərbi hissədə hərbi andı qəbul edib. Burada 2-ci patrul bölüyündə atıcı vəzifəsinə təyin olunub.



CAVADOV ELMAN XURŞUD OĞLU

Bölüyün qarşısına qoyulan tapşırıqların xüsusiyyətlərini, döyüş silah və sursatlarının taktiki-texniki göstəricilərini, əsgər üçün zəruri olan digər hərbi bilikləri təlimlərdə mənimsədikdən sonra ön cəbhəyə göndərilənlərin sırasında olmağa can atıb. Hərbi hissədən ailəsinə göndərdiyi məktublarında əsgərlik həyatının nəbzi duyulur, həmçinin, öz doğmalarına döyüşə getməyə hazır olduğunu, belə ağır günlərdə arxa cəbhədə canının sıxıldığını, öz yerini döyüşən oğulların sırasında gördüyünü bildirirdi.



*1992-ci il. Daxili Qoşunların şəxsi heyətinin bir qrupu Kəlbəcər rayonu ərazisində.*

Elman hərbi hissədən döyüş bölgəsinə bir-birini dəyişməklə, birləşmiş hərbi dəstə tərkibində göndərilən şəxsi heyətin sırasında Kəlbəcər-Ağdərə istiqamətində döyüş tapşırıqlarının yerinə yetirilməsinə cəlb olunub. İlk döyüş sınaqlarından alnıaçıq çıxması onu daha da ruhlandırıb. Ön cəbhənin yuxarıda qeyd olunan istiqamətindəki yaşayış məntəqələrimizin və düşmənlə təmas xətti boyu mövqelərimizin keşiyində qorxmaz əsgər kimi dayanan Elman döyüşçü yoldaşlarını özünə qardaş bilirdi. Döyüşçülərin birgə çəkdirdikləri çox nadir bir şəkil var. Şəkildə fotoobyektivə baxan üzlərdə məğrurluq və qətiyyət sezilir. Həmin şəkil onların bir qisminin həyatda çəkdirdikləri son şəkildir. İlk dəfə Cavadovlar ailəsində gördüyüm və bizim fotoarxivimizdə olmayan bu şəkil yaddaş baxımından olduqca dəyərlidir.

Elman ön cəbhəyə sonuncu dəfə 1992-ci il 15 iyun tarixində göndərilib. Bu tarix hərbi hissədən verilmiş müvafiq sənəddə öz əksini tapıb. Onun son döyüşü 1992-ci il iyul ayının 19-da, Ağdərənin Aterk (hazırda Həsənriz) kəndi ərazisində olub. Həmin döyüşdə əsgər E.Cavadov xəbərsiz itkin düşüb. Ermənilərin hücumu zamanı döyüşçülərimiz hər tərəfdən şiddətli atəşə tutulublar. Onlar bu qeyri-bərabər, köməksiz vəziyyətdə qaldıqları döyüşdə son nəfəslərinədək vuruşublar. Sonrakı günlərdə döyüşçülərin taleyi ilə bağlı qeyri-müəyyənlik hökm sürüb. Aterk (Həsənriz) həmin vaxt növbəti dəfə işğaldan azad edildikdən sonra onlarla hərbi qulluqçumuzun yandırılan, düşmən vəhşiliyinin digər izləri aşkarlanan, torpağa gömülən meyitlərinin qalıqları tapılıb. Elmanın atası Xurşud Cavadov bəzi valideynlərlə birgə hərbçilərin icazəsi ilə o vaxt Aterkə (Həsənriz) gedib və orada tapılan meyitlərin qalıqlarını öz gözləri ilə görüb. Belə ki, meyit qalıqlarının bir hissəsi düşmən tərəfindən ərazidəki qoz ağacının altında torpağa basdırılıb. Həlak olanların əksər qisminin meyitini tanınmaz halda olması səbəbindən təsbit etmək mümkün olmayıb. Meyitlərin qalıqları Bakıda Şəhidlər Xiyabanına gətirilərək qardaşlıq məzarında dəfn edilib. Məzarüstü mərmər lövhədə əsgər E.Cavadovun da adı həkk olunub.

Cavadovlar ailəsinin Elmanın müharibə itkini kimi axtarışı üçün aidiyyəti qurumlara müraciətləri heç bir nəticə verməyib.

Sumqayıt Şəhər Məhkəməsinin 25 fevral 2009-cu il tarixli müvafiq qətnaməsi ilə əsgər E.Cavadov müharibədə ölmüş elan edilib. Ailəyə dövlətimiz tərəfindən müvafiq müavinət təyin olunub.

Elmanın atası 2012-ci ildə vəfat edib. Şəhid atası kimi ürəyində nisgillə bu dünyadan küskün köçüb. Anası Salvar Cavadova, qardaşı Elxan Cavadov, bacıları Sədaqət Şirinzadə, İradə Cavadova və Nailə Eminova üçün bu ötən illər bir xəbər gözləntisi, habelə onun yoxluğu gerçəkliyi ilə barışmaq acısı ilə keçib. Bu günədək Aterk (Həsənriz) döyüşü haqqında müxtəlif şəxslərdən və mənbələrdən eşitdikləri, öyrəndikləri məlumatlar qaranlıq qalan təfərrüatlara işıq salmayıb. Müharibənin bir üzü də budur.

Bu gün düşmənin işğalı altında olan Aterk (Həsənriz) kəndi ərazisində 19 iyul 1992-ci il tarixli döyüşdə mətinliklə vuruşaraq şəhidlik zirvəsinə ucalmış və qardaşlıq məzarında dəfn olunmuş, habelə orada dəfn olunmamış döyüşçülərimizin əziz xatirəsi həmişə yaddaşımızda yaşayacaqdır.

**Allah rəhmət eləsin!**

**Yalçın Abbasov**

# VƏTƏNPƏRVƏR ƏQİDƏLİ PEŞƏKAR ZABİT

Hər il 12 mart – Daxili Qoşunların günü münasibətilə xidməti-döyüş fəaliyyətində müsbət cəhətdən fərqlənən hərbi qulluqçularımız dövlət mükafatları ilə təltif olunurlar. 2018-ci il də bu baxımdan istisna olmadı. Respublika Prezidenti cənab İlham Əliyevin Daxili Qoşunların şəxsi heyətinə böyük diqqət və qayğısının təzahürü olaraq, 9 mart 2018-ci il tarixdə imzalanan sərəncamla bir qrup hərbi qulluqçumuz müvafiq fəxri ad və medallara layiq görülüb. “Hərbi xidmətlərə görə” medalı ilə təltif olunan zabitlərimizdən biri – baş leytenant Anar Mahmudov bu günədək maraqlı və təqdirəlayiq hərbi xidmət yolu keçib. 99713 saylı hərbi hissədə xüsusi təyinatlı dəstə komandirinin xüsusi hazırlıq üzrə müavini vəzifəsində xidmət edən baş leytenant A.Mahmudov 20 fevral 1981-ci ildə Bakı şəhərində anadan olub. O, Daxili Qoşunların şəhid zabiti Zahid Mahmudovun oğludur. Həmçinin, əmisi Fazil Mahmudov uzun illər Daxili Qoşunlarda xidmət edərək mayor hərbi rütbəsində ehtiyata buraxılıb. Onun üçün atasının və əmisinin yolunu davam etdirmək böyük şərəfdir. Şəhid zabitin övladı olmaq hərbi qulluqçunun üzərinə həm də bir mənəvi məsuliyyət qoyur. Baş leytenant A.Mahmudov bu mənəvi məsuliyyəti düzgün dərk edən və vətənpərvərlik əqidəsinə sadiq qalan zabitdir.

1999-cu ildə Daxili Qoşunların 25032 saylı hərbi hissəsində hərbi xidmətə başlayan Anar əsgər hərbi rütbəsindən baş leytenant hərbi rütbəsinə, xüsusi təyinatlı dəstə komandirinin müavini vəzifəsinədək yüksələrək, bu günədək ötən müddətdə öz fəaliyyəti ilə ona göstərilən etimadı doğruldub.

O, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının məzunudur. Yeniyetmə yaşlarından idmanın cüdo növü ilə məşğul olub. “Lokomotiv” idman cəmiyyətinin xətti ilə paytaxt birinciliyi uğrunda yarışlara qatılıb, bacarıqlı idmançı kimi fəxri yerlərə sahiblənib. Xaraktercə qətiyyətli, iradəli, əzmkar olması hərbi xidmət zamanı da onun fərdi keyfiyyətlərinə çevrilib.

Müddətli həqiqi hərbi xidmətdə olarkən kiçik komandirlər kursuna göndərilməsi və çavuş hərbi rütbəsi verilməsi, sonra müddətdən artıq həqiqi hərbi xidmətə keçirilməsi, gizir hazırlığı kursunu bitirməsi və bu hərbi rütbədə xidmətini davam etdirməsi, nəhayət zabit rütbəsinə layiq bilinməsi Anarın həqiqətən də öz üzərində çalışan, məsuliyyətli olan, qarşısına qoyduğu məqsədlərə çatmaq üçün bilik və səriştəsinə güvənən, heç vaxt ruhdan düşməyən hərbi qulluqçu kimi əməyinin nəticəsidir.





O, Daxili Qoşunların 17072, 16075, 12318, 16073, 25031 saylı hərbi hissələrinin xüsusi təyinatlı bölmələrində məsul vəzifələrə təyin olunub. Zəngin praktiki təcrübəyə malikdir. Bu təcrübə hazırkı vəzifəsi üzrə xidməti fəaliyyət prosesində istinad etdiyi bir qiymətli mənbədir. Onun qardaş Türkiyə Cümhuriyyətində ayrı-ayrı illərdə Jandarm Qüvvələrinin komando hazırlayan, komando ixtisas, şiddətli soyuqlarda və dərin qarda hərəkət, terrorla mübarizə və girovların azad edilməsi kurslarını bitirməsi də peşəkar hərbi qulluqçu kimi formalaşmasında, xüsusi təyinatlı bölmənin yerinə yetirdiyi tapşırıqların xüsusiyyətlərinə dərindən bələd olmasında ciddi rol oynayıb.

Baş leytenant A.Mahmudov ayrı-ayrı illərdə paytaxt və bölgələrdə kütləvi iğtişaşların qarşısının alınması, ictimai asayişin təmin olunması, cəzaçəkmə müəssisələrində daxili qayda-qanunun bərpa edilməsi, silahlı cinayətkarların zərərsizləşdirilməsi, təbii fəlakətlərin və qəzaların nəticələrinin aradan qaldırılması, fövqəladə hadisələr zamanı vətəndaşların xilas edilməsi kimi mürəkkəb və təhlükəli xidməti tapşırıqların yerinə yetirilməsində iştirak edib. Bu zaman ekstremal vəziyyətdə özünü itirməyən, risk faktorları qarşısında çeviklik və cəsarət göstərən, təhkim olunan ekipirovka, silah və xüsusi vasitələrdən düzgün və dəqiqliklə istifadə edən hərbi qulluqçu kimi fərqlənib.

Bu xidməti tapşırıqlar arasında 2015-ci ildə paytaxtın Binəqədi rayonu ərazisindəki yaşayış binasında baş vermiş dəhşətli yanğın zamanı sakinlərin xilası üzrə fəaliyyətini xüsusi qeyd etməyi vacib bilirəm. Alovun bürüdüyü çoxmərtəbəli binanın damına helikopter vasitəsilə düşən, boğucu tüstünün yayıldığı, yanan keçidlər, dəhlizlər, mərtəbələr, mənzillərdə sakinləri axtaran və xilas edən baş leytenant A.Mahmudov və digər xüsusi təyinatlılar dərin sarsıntı keçiriblər. Onun xilas etdikləri arasında qundaqdakı körpə də olub. O gərgin anlarda öz həyatına təhlükəni düşünmədən vətəndaşlarımızı yanğının caynağından çıxarması əsl fədakarlıq nümunəsidir.

Baş leytenant A.Mahmudov bu günədək hərbi xidməti dövründə hərbi xidmət sahəsinə aid bir sıra medallarla təltif olunub. Həmçinin “Xidmətdə fərqləndiyinə görə” döş nişanı ilə mükafatlandırılıb. Ona baş leytenant hərbi rütbəsi vaxtından əvvəl verilib. Şəkli hərbi hissənin şərəf lövhəsindədir. Şəxsi heyət arasında hörmət qazanan, zabit şərəfini daim uca tutan baş leytenant A.Mahmudov tabeliyindəki hərbi qulluqçuların vətənpərvər və mübariz ruhda tərbiyə olunmasına, döyüş hazırlığının yüksəldilməsinə xüsusi diqqət yetirir. O, həm tələbkar, həm də qayğıkeş zabitdir. Öz təmkinli davranışı ilə şəxsi heyətə nümunə olmaqla, onlara xüsusi təyinatlı məsləyini də daim aşılayır.

“Respublika Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin sərəncamı ilə “Hərbi xidmətlərə görə” medalına layiq görülməyim qəlbimdə iftixar hissi doğurur və məni daha böyük əzmlə xidmət etməyə ruhlandırır. Dövlətçiliyimiz naminə hər bir tapşırığı yerinə yetirməyə hazır olmaq bizim hərbi qulluqçu kimi əsas vəzifəmizdir” – deyən baş leytenant A.Mahmudov Daxili Qoşunların layiqli yetirməsidir. Hərbi xidmətdə uğurlarınız davamlı olsun, yoldaş baş leytenant!

**Yalçın Abbasov**

# HƏRBİ HİSSƏDƏ KEÇİRİLƏN TƏDBİRDƏ SOYQIRIM QURBANLARI VƏ ŞƏHİDLƏRİMİZ ANILIB



25031 saylı hərbi hissədə Daxili Qoşunların Veteranlar Şurası üzvlərinin iştirakı ilə 31 mart – Azərbaycanlıların Soyqırımı Günü və 2016-cı ilin aprel döyüşlərinin növbəti ildönümü münasibətilə tədbir keçirilib. Tədbirdə 1918-ci ilin mart hadisələri və 1992-ci ilin 26 fevral tarixində Xocalıda baş vermiş soyqırım zamanı qətlə yetirilmiş soydaşlarımızın, habelə torpaqlarımızın işğaldan azad olunması uğrunda canını fəda etmiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Daxili Qoşunların Veteranlar Şurasının üzvləri Vaqif Nəsibov, Səfxan Bayramov və Elxan Xəzər tədbirdə çıxış edərək, xalqımızın öz keşməkeşli tarixinin ayrı-ayrı dövrlərində xain qonşumuz Ermənistanın silahlı qüvvələri tərəfindən hərbi təcavüzə və soyqırıma məruz qaldığını vurğulayıblar. Bu hadisələr zamanı yüz minlərlə soydaşımız zorakılığa məruz qalaraq, milli mənsubiyyətinə görə qətlə yetirilib və öz doğma torpağından didərgin salınıb. Qeyd edilib ki, ermənilərin ərazi iddialarından, məkrli xislətindən, digər xalqlara qarşı milli, dini dözümsüzlüyündən qaynaqlanan faciəvi soyqırım hadisələri ilə üzləşən xalqımız böyük fəlakətlər yaşayıb. Məruzəçilər nəzərə çatdırıblar ki, 1918-ci ilin mart hadisələri barədə həqiqətlər sovet dövründə xalqdan gizli saxlanılıb və yalnız ölkəmiz öz müstəqilliyinə qovuşduqdan sonra arxivlər açılaraq real faktlar ictimailəşdirilib. XX əsrin 1918-1920-ci və 1988-1994-cü illərində erməni millətçilərinin həyata keçirdikləri qanlı terror və hərbi təcavüz siyasəti nəticəsində yaranan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi uzun illərdir öz həllini tapmır. Bunun bir səbəbi də beynəlxalq ictimaiyyətin laqeyd münasibəti və dünya siyasətində ikili standartların hökm sürməsidir.



Bildirilib ki, xalqımız beynəlxalq aləmdən öz uzaq və yaxın keçmişində yaşadığı faciələrə, torpaqlarının işğalı faktına ədalətli münasibət gözləyir. Dünya xalqları saxta “erməni soyqırımı” iddialarını rədd etməli, tarixdə gerçək olmuş azərbaycanlıların soyqırımına hüquqi-siyasi qiymət verməlidirlər.

Çıxışlarda xüsusi olaraq vurğulanıb ki, tariximizdə olmuş soyqırım hadisələrinə ilk siyasi qiymət Milli Lider Heydər Əliyev tərəfindən verilib. Azərbaycanlıların Soyqırımı Günü də məhz Ulu Öndərin imzaladığı müvafiq fərmanla qeyd olunmağa başlayıb.

Bu gün Respublika Prezidenti cənab İlham Əliyevin yürütdüyü daxili və xarici siyasət doğma Azərbaycanımızın güclənməsinə, dünya birliyində öz layiqli yerini tutmasına, respublikamızın ərazi bütövlüyünün bərpa olunmasına, milli həmrəyliyin və dövlətçiliyimizin möhkəmləndirilməsinə yönəldilib.

Artıq son illər ölkəmiz dünyanın tolerantlıq mərkəzlərindən, sivilizasiyalararası dialoq məkanlarından biri kimi tanınır. Bu gün Azərbaycan həqiqətləri bütün dünyaya yayılır. Beynəlxalq müstəvidə “Xocalıya ədalət” kampaniyası geniş diqqət mərkəzindədir. Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalı, bir milyondan çox qaçqın və məcburi köçkünün olması faktı beynəlxalq təşkilatların sənədlərində əksini tapır.

Veteranlar 2016-cı ilin aprel döyüşləri zamanı ordumuzun əldə etdiyi zəfərin xalqımızda ruh yüksəkliyi yaratdığını vurğulayıblar. Həmin döyüşlər ordumuzun gücünü və xalqımızın yenilməz iradəsini sübut etdi. Azərbaycan öz torpaqlarını işğaldan azad etməyə hazır və qadirdir. Bu yolda şərəfli döyüş yolu keçmiş Daxili Qoşunlar da öz sözünü deyəcəkdir. Hərbi qulluqçularımızın döyüş ruhu yüksəkdir və onlar vətənpərvərlik əqidəsinə sadiqdirlər.

Veteranlar çıxışlarında şəxsi heyətə hərbi xidmətlə bağlı öz tövsiyələrini də bildiriblər.

**“Əsgər”**

*AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ - 100*

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ DÖVRÜNDƏ ORDU QURUCULUĞU

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə 2018-ci il "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilib. Bu, Azərbaycanın dövlətçilik tarixinə böyük ehtiramdır. Şərqdə ilk demokratik cümhuriyyət olan Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın dövlətçilik tarixində özünəməxsus dəyərlər miras qoydu. Ulu Öndərimiz Heydər Əliyev onu həmişə yüksək dəyərləndirirdi.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı Sərəncamda deyilir: "...Azərbaycan Xalq Cümhuriyyəti zəngin dövlət quruculuğu təcrübəsi ilə milli dövlətçilik tarixində silinməz izlər qoyub, xalqın qəlbində azadlıq və istiqlal duyğularını gücləndirməklə respublikanın gələcək müstəqilliyi üçün etibarlı zəmin hazırlayıb". Bu zəmin 1991-ci ildə gerçəkləşdi, Azərbaycanın dövlət müstəqilliyi bərpa olundu.*

*"Azərbaycan Xalq Cümhuriyyəti İli" həm də Azərbaycan Ordusunun 100 illik yubiley ilidir.*

*1918-ci ildə yaradılan Azərbaycan Ordusu ilə bağlı tarix elmləri doktoru, Silahlı Qüvvələrin Hərbi Akademiyasının dosenti, ehtiyatda olan polkovnik Mehman Süleymanovun bu məqaləsi, Sərəncamda qeyd olunduğu kimi, ölkədə keçiriləcək silsilə tədbirlərin tərkib hissələrindəndir.*

***AZƏRTAC** arxiv materialları əsasında hazırlanan məqaləni təqdim edir.*

Azərbaycan Xalq Cümhuriyyətinin mövcud olduğu 23 ay ərzində ölkənin müdafiəsinin təşkili, ordunun formalaşdırılması sahəsində uğurlu işlər görüldü. Xalq Cümhuriyyəti Azərbaycanın XX əsr tarixinin parlaq səhifələrindən biridir. Bu işlərin və əldə edilmiş nəticələrin öyrənilməsi, ümumiləşdirilməsi həm dövrün tarixinin tədqiqi, həm də ordu quruculuğu sahəsində ənənənin bərpası və ondan düzgün nəticə çıxarılması baxımından elmi və praktiki əhəmiyyətə malikdir.



Azərbaycanın istiqlaliyyətinin elan olunduğu tarixi şərait, onun qərar tutduğu bölgədə cərəyan edən proseslər xalqın müstəqilliyinə real dayaq ola biləcək ordunun formalaşdırılmasını tələb edirdi.

Hələ Türkiyə hərbi qüvvələri Azərbaycanda olarkən başlamış ordu quruculuğunu yenidən canlandırmaq və onu daha səmərəli aparmaq üçün 1918-ci il oktyabrın 23-də respublika hökumətinin iclasında Hərbi Nazirliyin yaradılması qərara alındı. Nazirlər Şurası tərəfindən belə bir qərar 1918-ci il noyabrın 1-də imzalandı. Yeni şəraitdə Azərbaycanın ərazi bütövlüyünün qorunması tamamilə Hərbi Nazirliyin üzərinə düşməli idi. Bu struktur hökumətin qarşısında dayanan tarixi vəzifələrin həllində çox mühüm rol oynadığından, ona rəhbərliyi ilk vaxtlar Nazirlər Şurasının sədri Fətəli Xan Xoyski öz üzərinə götürdü. Tam artilleriya generalı Səməd bəy Mehmandarov nazir müavini təyin edildi və nazirliyin formalaşdırılması ona tapşırıldı.

Cəmiyyət quruculuğunun bütün sahələrində olduğu kimi, ordu quruculuğunun da özünəməxsus obyektiv qanunauyğunluqları vardır və bu qanunauyğunluqlara riayət edilməməsi ordunun formalaşdırılmasında ciddi çətinlik yarada bilər. Bütün dövrlərdə, bütün ordular üçün ümumi olan qanunauyğunluqlar, eyni zamanda, milli ənənələrdən, xalqın mənəvi potensialından, ölkənin iqtisadi, siyasi, demoqrafik imkanlarından, coğrafi vəziyyətindən və s. irəli gələn xüsusiyyətləri də əhatə edir. Ordu quruculuğu üçün ümumi cəhətlər çoxluq təşkil etsə də, hər bir ölkədə bu prosesin həmin ölkəyə xas olan xarakterik xüsusiyyətləri də vardır. Azərbaycan Xalq Ordusunun qısa vaxt ərzində formalaşdırılmasının əsas səbəblərindən biri də bu idi ki, həmin prosesə rəhbərlik edən şəxslər ümumi nəzəri dəyərlər və əldə olan təcrübə ilə ordu quruculuğunun Azərbaycan şəraitindən irəli gələn xüsusiyyətlərini çox incəliklə və üzvi şəkildə birləşdirə bilmişdi. Hərbi Nazirlik bərpa edildikdən sonra bu istiqamətdə müəyyən çətinliklər də mövcud idi. Bir tərəfdən türk qoşunları Azərbaycanı yenicə tərk edirdilər. Cümhuriyyət ordusu quruculuğunun ilkin mərhələsi türk hərbçilərinin rəhbərliyi altında aparıldığından, ordu daxilində onların dəst-xətti qalmaqda idi. Digər tərəfdən Cümhuriyyət ordusunda xidmət edən yüksək rütbəli zabitlərin, demək olar ki, hamısı xidməti çar ordusu sıralarında keçmişdilər və rus ordusunun ənənələri ruhunda tərbiyə olunmuşdular. Cümhuriyyət ordusunun milli dəyərlər üzərində formalaşdırılması üçün, ilk növbədə, bu təsirlərin Azərbaycan şəraitinə uyğun gəlməyən tərəfləri aradan qaldırılmalı idi. Həmin problem Hərbi Nazirliyin mövcud olduğu təxminən ilyarım ərzində ardıcıl olaraq həll edildi. Ordu quruculuğuna türk və rus təcrübəsinin güclü təsirə malik olmasına baxmayaraq, Azərbaycanda milli zəminə söykənən bir ordu formalaşdırıldı və proseslərin sonrakı inkişafı da qonşu dövlətlərin ordu quruculuğu təcrübəsinin kor-koranə təkrarlanmamasının doğruluğunu təsdiqlədi.

1918-1920-ci illərdə Azərbaycanda ordu quruculuğunun başlıca aspektlərindən biri bu fəaliyyət sahəsinin dövlət quruculuğunun mərkəzində dayanması idi. Müstəqilliyin qorunması üçün düzgün seçilmiş siyasi-strateji xətt ölkənin müdafiə qabiliyyətinin möhkəmləndirilməsinə real zəmin yaratmışdı. Hərbi quruculuq məsələləri yeni cəmiyyət quruculuğunun bütün sahələri ilə sıx şəkildə tənzimlənir, bütün imkanların Azərbaycanın ərazi bütövlüyünün qorunmasına səfərbər olunması üçün təxirəsalınmaz və qəti addımlar atılırdı.

Həm ali qanunvericilik orqanı olan ölkə parlamenti, həm də icraedici orqan olan Nazirlər Şurası bu istiqamətdə öhdələrinə düşən vəzifələrə böyük məsuliyyətlə yanaşırdılar. Ölkə parlamenti mövcud olduğu dövrdə hərbi quruculuğun müxtəlif sahələri ilə bağlı 9 qanun layihəsini nəzərdən keçirmiş və müvafiq qərarlar qəbul etmişdi. Həmin qərarların hər biri dövlətin müdafiə gücünün artırılması üçün həm cari, həm də perspektiv əhəmiyyətə malik idi və bu qərarlar icraedici orqanların fəaliyyətinin istiqamətləndirilməsi üçün əsas kimi qəbul edilmişdi. Öz işini ölkə daxilində cərəyan edən proseslərlə sıx surətdə əlaqələndirən parlament dövlətin müstəqilliyinin qorunması sahəsində gərginlik yaradan məsələlərə dərhal reaksiya verir və bunları müzakirə obyektinə çevirirdi.

***(davamı gələn sayımızda)***

*metodiki vəsait*

# NARKOMANİYANIN ƏLAMƏTLƏRİ...

Narkomaniya - mütəmadi, artan dozada narkotik vasitələrin istifadəsi zamanı, narkotik vasitələrdən psixi və fiziki asılılıq formalaşması ilə xarakterizə olunan xəstəlikdir.

Narkomaniyanın əsas əlamətlərindən biri narkotik vasitələrdən sui-istifadə zamanı reaktivliyin dəyişilməsidir ki, bu özünü narkotik vasitələrə patoloji meyillilik, dəyişilmiş tolerantlıq, narkotik vasitədən imtina zamanı abstinent sindromun inkişafı ilə ifadə edir.

Narkomaniya zamanı aşağıdakı hallar qeyd olunur:

*- Orqanizmin dəyişilmiş reaktivlik sindromu (qoruyucu reaksiya, tolerantlıq, istifadə forması);*

*- Psixi asılılıq sindromu (obsessiv meyil, intoksikasiya zamanı psixi komfort);*

*- Fiziki asılılıq sindromu (kompulsiv meyil, miqdara nəzarətin itirilməsi, abstinent sindromu, intoksikasiya zamanı fiziki komfort).*

Bu üç sindrom böyük narkoloji sindromu təşkil edib, narkomanı sağlam şəxsdən fərqləndirir. Narkoloji sindromun hər bir struktur elementi narkomaniyanın formasından və prosesin stadiyasından asılı olaraq üzə çıxır. Xəstəliyin inkişafı zamanı qeyd olunan sindromlar eyni vaxtda yaranmır. İlkin olaraq dəyişilmiş reaktivlik və psixi asılılıq sindromu qeyd olunur. Fiziki asılılıq sindromu digər iki sindrom fonunda gec formalaşır.

### Dəyişilmiş reaktivlik sindromu

*- İstifadə formasının dəyişilməsi;*

*- Tolerantlığın dəyişilməsi;*

*- Doza aşırımı zamanı qoruyucu reaksiyaların itməsi;*

*- Sərxoşluq formasının dəyişilməsi.*

Narkotik vasitələrin davamlı qəbulu sağlam şəxslərdə əsasən istifadənin erkən mərhələlərində müəyyən disfunksiyalara səbəb olur. Narkotik vasitənin sistematik qəbulu fonunda psixi və fiziki komfort varsa, bu, orqanizmin həmin narkotik vasitəyə qarşı dəyişilmiş reaktivliyini təsdiqləyir. Xəstəliyin gedişi boyunca digər əlamətlərin meydana çıxması narkotik vasitədən sistematik istifadəyə məcbur edir. Bu mexanizm klinikada patoloji meyillilik, abstinensiya sindromu, tolerantlığın artması ilə müşayiət olunur.

Qoruyucu reaksiyaların itməsi davamlı istifadədən sonra tez əmələ gəlir. Qoruyucu reaksiyalar qusma refleksi, inisial qaşınma, tərləmə, hıçqırma, ürəkbulanma, öyümə hissi formalarında qeyd olunur. Qoruyucu reaksiyaların azalması və sonradan tamam itməsi orqanizmin yeni mərhələyə keçməsini göstərir, bu zaman əvvəlki yüksək doza toksik olmur və qoruyucu funksiyaya ehtiyac duyulmur.

Sərxoşluq formasının dəyişilməsi formalaşmış sistematik narkotik istifadəsi zamanı, yüksək tolerantlıq və doza aşırımı zamanı qoruyucu reaksiyaların itməsindən sonra yaranır. Zamana görə reaktivlik sindromuna daxil olan sonuncu simptom olub digər narkoloji sindromlar fonunda inkişaf edir. Bu sindromun dinamikası narkoloji asılılığın inkişafını göstərir.

### Psixi asılılıq sindromu

Psixi asılılıq sindromuna narkotik vasitələrə psixi (obsessiv) meylin olması və intoksikasiya zamanı psixi komfortun əldə olunması aiddir. Psixi meyil daimi narkotik haqda fikirlər, narkotik qəbulu zamanı əhval-ruhiyyənin artması, əks halda isə narazılıq, əzginlik hissi ilə müşahidə olunur. Narkotik haqda sayrışan fikirlərin olması psixi meyli obsessiv adlandırmağa imkan verir. Kompulsiv meyil xəstənin hərəkətlərini ifadə etdiyi halda, obsessiv meyil əhval-ruhiyyəni, emosional fonu təyin edir.

Obsessiv meyl ilkin simptomlardan biri olmasına baxmayaraq, ən uzunmüddətli, çətin aradan qalxan simptomdur.

### Fiziki asılılıq sindromu

Fiziki (kompulsiv) meyil narkomaniyanın əsas əlamətlərindən biri olub narkotizasiyaya güclü meyil ilə müşahidə olunur. Meyil yüksək intensivlikdə olub, hətta həyati vacib meyillərdən olan susuzluq və aclıq hissini də üstələyir. Obsessiv meyildən təkcə intensivliyi ilə deyil, həm də hazırkı məqamda narkotizasiyadan başqa fikirlərin olmasına imkan vermir. Kompulsiv meyil nəinki əhval-ruhiyyəni və affektiv fonu təyin edir, həmçinin davranışı, digər motivlərin aradan qaldırılmasını kontrol edir. Xəstələrin hərəkət və davranışlarını motivasiya edir. Bu zaman bütün istəklər narkotik vasitə əldə etməyə yönəlir. Əlavə olaraq kompulsiv meyil xarakterik vegetativ pozuntularla - bəbəklərin genişlənməsi, hiperhidroz, ağızda quruluq, hiperrefleksiya, tremor ilə müşayiət olunur. Abstinent sindrom narkomaniyanın bütün formalarında meydana çıxmır, formalaşma uzun müddət ərzində baş verir. Sonuncu narkotik qəbulundan bir neçə müddət sonra əmələ gəlir. Abstinent *sindromun ləng formalaşması alkoqolizmdə, tez formalaşması həşiş narkomaniyasında, daha qısa müddət ərzində isə opioidlərin istifadəsi zamanı baş verir.*

### Narkoloji sərxoşluq

Narkoloji sərxoşluq və ya narkoloji sərxoşluq sindromu narkotik vasitə qəbulundan sonra yaranan vəziyyəti əhatə edib, xüsusi psixi və somatik simptomlarla xarakterizə olunur.

Narkoloji sərxoşluq zamanı psixi vəziyyət eyforiya ilə müşayiət olunur. Eyforiya psixi və somatik hisslərin emosional təzahürlərindən formalaşır. Hər bir narkotik vasitə üçün eyforiyanın xüsusi strukturu xasdır. Belə ki, opioid istifadəsindən yaranan eyforiya zamanı emosional sakitlik fonunda somatik həzzalma hissi; stimulyator qəbulundan sonra yaranan eyforiya zamanı intellektual aydınlaşma; həşiş qəbulundan sonra isə eyforiya daha çox fantastik məzmunlu qavrama pozuntuları ilə müşayiət olunur.

Narkoloji sərxoşluq zamanı qavrama pozuntuları 3 formada qeyd olunur:

*- Kəskinləşmə;*

*- Seçicilik qabiliyyəti;*

*- Qavramanın zəifləməsi.*

Həmçinin, qavrama keyfiyyəti pozulur. Düşüncə pozuntuları kəmiyyət və keyfiyyət pozuntuları, sayıqlama ideyaları ilə xarakterizə olunur.

Narkoloji sərxoşluq zamanı somatonevroloji təzahürlər daha çox vegetativ simptomatika ilə müşahidə olunur. Daha çox midriaz, hipertermiya, hiperemiya, tərləmə, taxikardiya, arterial təzyiqin artması, tənəffüsün tezləşməsi qeyd olunur. Sərxoşluq vəziyyətindən sonra bağırsaq motorikası pozulur. Əzələ tonusu, oyanıqlıq, hərəkət sürəti və koordinasiyası azalır. Narkotik sərxoşluqdan çıxış yuxu ilə müşayiət olunur. Tez-tez depressiv vəziyyət darıxma, ümidsizlik, qorxu, təşviş hissi inkişaf edir.

**Respublika Narkoloji Mərkəzi**

# HƏRBİ XƏBƏRLƏR -YENİLİKLƏR -

### "Görünməz" aviabombalar

"Rusiyanın 5-ci nəsil Su-57 çoxfunksiyalı qırıcılarının silahlanmasına bu yaxınlarda "Drel" aviabombası əlavə ediləcək".

Bu barədə qırıcıların istehsal edildiyi "Texmaş" konserninin baş direktor müavini Aleksandr Koçkin bəyan edib. Perspektivdə bu aviabombaların Su-57 qırıcılarına tətbiq edilməsi mümkündür. 500 kiloqram çəkiyə malik aviabombalar düşmən obyektlərini rəqibin raketdən müdafiə sistemlərinin təsir zonasına daxil olmadan vurmağa imkan verir. "Heç bir rəqib radarı bu bombaları aşkarlamağa qadir deyil", - deyə Koçkin vurğulayıb.

### ABŞ ordusu yeni lazer və mikrodalğalı silah üzərində işləyir

ABŞ ordusu müdafiə kontraktoru "Raytheon"la əməkdaşlıq çərçivəsində iki yeni növ Pilotsuz Hava Sistemlərinin Əngəlləmə silahı üzərində işləyir.

Xarici KİV-lərə istinadən verilən xəbərdə bildirilir ki, onlardan biri mikrodalğa, digəri isə lazer silahıdır.

Məlumata görə, silahların hazırlanmasında məqsəd dronların fəaliyyətdə olarkən yandırılmasıdır. "Popular Mechanics"in yaydığı xəbərə görə, ABŞ Quru Qoşunlarının sınaq poliqonunda silahların ilkin sınağı həyata keçirilib və onlar ümumilikdə, 45 dronu zərərsizləşdirib.

### Rusiyanın daha bir bölüyü "Yars"larla təchiz edilib

Rusiya Strateji Raket Qüvvələrinin Taqil bölüyü "Yars" quru mobilli qitələrarası ballistik raket sistemləri ilə təchiz edilib.



Bu barədə Rusiya Strateji Raket Qüvvələrinin komandiri Sergey Karakayev bəyan edib. O, Novosibirskdən sonra Taqil bölüyünün də bu raket sistemləri ilə təchizatının başa çatdığını bildirərək, eyni zamanda İrkutsk və Yoşkar-ola bölüklərinin təchizatının davam etdirildiyini əlavə edib. Digər bölüklərə "Yars"ların verilməsinə isə 2020-ci ildə başlanacaq.

### Yaponiya Hərbi Dəniz Qüvvələrinin yeni növ döyüş gəmisi

"Navyrecognition.com" saytı xəbər verir ki, bu barədə Yaponiya Müdafiə Nazirliyi məlumat yayıb.

Naqasakidə "Mitsubishi Heavy Industries" şirkətinin tərsanəsində "JS Asahi" esminesinin Yaponiya hərbi donanmasının tərkibinə daxil edilməsi mərasimi keçirilib.

"JS Asahi" esminesi 255DD tipli iki esminesdən birincisidir. İkinci esmines "JS Shiranui" isə donanmaya 2019-cu ilin mart ayında təhvil veriləcək.

"JS Asahi" raket esminesidir, lakin onun əsas ixtisaslaşması sualtı əməliyyatlardır. Gəmi 151 metr uzunluğa malikdir, onun sualtı basma göstəricisi isə 5100 ton təşkil edir.

Esminesin əsas silahları hava hücumundan müdafiə və raket əleyhinə müdafiə silahları, həmçinin torpedalar olacaq.

Qeyri-rəsmi məlumatlara görə, gəmi AEGİS sistemi ilə də təchiz edilib.

### Böyük Britaniya ordusunda atıcı silahlar yenilənir

"Thefirearmblog.com" saytı xəbər verir ki, bu barədə Böyük Britaniya Müdafiə Nazirliyi məlumat yayıb. İlk olaraq Qrenadyor qvardiyasının polkunun silahları L85A3 avtomatlarına dəyişdirilib.

L85A3 yeni və daha yüngül lüləyə malikdir. Həmçinin, avtomat yeni qoruyucu ilə təchiz edilib. Avtomatın rəngi də kamuflyaja uyğunlaşdırılıb.

**ordu.az**

## Allah rəhmət eləsin

Daxili Qoşunların Komandanlığı polkovnik Sadiq Xəlilova **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

25033 saylı hərbi hissənin komandanlığı kapitan Ramil Hacıyevə **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

*TƏSİSÇİ:*
**Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.**
**Redaktor: X.Hacızadə**

**REDAKSİYANIN ÜNVANI:**
**AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.**
**Əlaqə telefonları: 560-22-63**

**Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.**

**Şəhadətnamə 3565**
**Sayı 3000**